AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

国家留学基金管理委员会
CHINA SCHOLARSHIP COUNCIL

# Çin Xalq Respublikasında Hökumətlərarası Təqaüd Proqramı (HTP) çərçivəsində təhsil

## 2024/2025-ci tədris ili üçün



**İndi müraciət et: www.portal.edu.az**

## Ümumi məlumat

Təqaüd proqramı Azərbaycan Respublikası Prezidentinin 12 iyun 2020-ci il tarixli Fərmanı ilə təsdiqlənmiş 13.04.2020-ci il tarixli Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"ə əsasən həyata keçirilir. Proqram hər iki ölkənin vətəndaşlarına tələbə mübadiləsi əsasında qarşı ölkənin ali məktəblərində arzu etdikləri ixtisas üzrə təhsil almaq imkanı yaradır.

Proqram çərçivəsində namizədlər bakalavriat, magistratura və doktorantura təhsil səviyyələri üzrə təhsil almaq hüququ əldə edirlər.

Tədris dili çin dilində olan ixtisaslarda təhsil almaq hüququ qazanacaq tələbələr bir il müddətində çin dili üzrə hazırlıq kursu keçməli, ingilis dilli proqramlara müraciət edən şəxslər isə müvafiq dil sertifikatına malik olmalıdır. Çin dili üzrə hazırlıq kursu keçmək istəyən tələbələr bakalavriat təhsil səviyyəsi üzrə çin dili səviyyəsi imtahanı üzrə (HSK3) 3-cü dərəcəyə, magistratura və doktorantura təhsil səviyyələri üzrə isə çin dili səviyyəsi imtahanı üzrə (HSK4) 4-cü dərəcəyə malik olmalıdırlar. Nəzərinizə çatdırırıq ki, bakalavriat təhsil səviyyəsi üzrə təhsil yalnız Çin dilində mümkündür.

Namizədlər prioritetlik gözlənilməklə qəbul meyarlarını diqqətlə araşdırmaqla 3 universitet seçməlidirlər və yeni qaydalara əsasən seçdikləri universitetlərin ən azı birindən **qəbul məktubu və ya qəbul olma imkanı barədə məktubu ("pre-admission notice, proof of admission from tutor")** təqdim etməlidirlər. İxtisas seçimi üzrə məhdudiyyət tətbiq edilmədiyinə görə, təhsil almaq istədiyiniz ixtisasın müəyyən edilməsi məqsədilə müsabiqədə iştirak edən universitetlərlə bağlı ((yalnız *-la işarələnmiş ixtisaslar) müvafiq məlumatlarla https://campuschina.org/universities/index.html internet səhifəsindən tanış olmağınız xahiş olunur.

Nəzərinizə çatdırırıq ki, təhsil müddəti ixtisasdan asılı olaraq, dil hazırlığı kursu istisna olmaqla, bakalavriat səviyyəsi üzrə 4-6 il, magistratura səviyyəsi üzrə 2-4 il və doktorantura səviyyəsi üzrə 3-4 il arasında dəyişir.

## Son müraciət tarixi

Təqaüd proqramına müraciət üçün **son tarix: 07.01.2024, 18:00** (GMT+4, Bakı vaxtı ilə).

# Müraciət qaydaları

1. Təqaüd proqramına müraciət edəcək iddiaçılar Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elektron ərizə sisteminə müraciət etməlidirlər: **https://portal.edu.az/**

   **Qeyd:** Elektron qeydiyyatı düzgün şəkildə tamamlamış, bu elanın və müraciət etdikləri ali təhsil müəssisələrinin ümumi tələblərinə cavab verən namizədlər fərdi şəkildə keçiriləcək onlayn müsahibəyə dəvət olunacaqlar.
2. Müsahibənin dəqiq vaxtı və keçid (link) barədə məlumat namizədə elektron sistem vasitəsi ilə bildiriləcəkdir, eyni zamanda ərizənin statusunun dəyişməsi barədə məlumat namizədin qeydiyyatdan keçdiyi nömrəyə SMS şəklində göndəriləcəkdir;
3. Elektron sistemə yüklənmiş sənədlərin notarial qaydada təsdiqini mütləq qaydada müsahibədən sonra əlaqədar şəxsə təqdim etməyiniz sizə bildiriləcəkdir;
4. Onlayn müsahibə üçün təyin olunmuş vaxta 15 dəqiqədən çox gecikən şəxslər müsahibəyə buraxılmayacaqdır;
5. Hər bir namizədlə keçiriləcək müsahibə 10-15 dəqiqə ərzində davam edir, müsahibədə audio-video yazılması aparılır;
6. Seçim nəticələrinə dair apelyasiya şikayəti verilməsi nəzərdə tutulmur;
7. Elm və Təhsil Nazirliyi tərəfindən namizədliyi təsdiq olunmuş şəxslərin adları ÇXR tərəfinə 2024-cü ilin fevral ayında təqdim ediləcəkdir;
8. Elm və Təhsil Nazirliyi tərəfindən təklif olunan və təsdiq üçün ÇXR tərəfinə göndərilmiş namizədlərin sənədləri müraciətlərində qeyd etdikləri ali təhsil müəssisələrinə* seçim sıralamasına uyğun olaraq göndəriləcəkdir;

   **Ali təhsil müəssisələrinin seçim qaydaları bir-birindən fərqlənir və qəbul daxili qaydalarla tənzimlənir. Göstərilmiş universitetlərdən heç birinə qəbul ola bilməyən namizədlərin həmin universitetlərdə təqaüd hesabına təhsili mümkün olmayacaqdır.*

9. Tələbələrin təqaüd proqramına qəbulu ilə bağlı yekun qərarın 2024-cü ilin iyul ayı ərzində təqdim olunması gözlənilir.

# Maliyyələşmə

Tələbələr üçün nəzərdə tutulmuş təqaüd aşağıdakı xərcləri əhatə edir:

**Çin tərəfindən:**

- Ali məktəbdə qeydiyyat xərci
- Təhsil haqqı
- Laboratoriya xərci
- Təcrübə ("internship") xərci
- Tədris materialları
- Yataqxana xərci
- Aylıq yaşayış xərci

Təqaüd Proqramına daxil olan xərclər barədə ətraflı məlumatı aşağıdakı keçiddən əldə etməyiniz mümkündür: https://www.campuschina.org/content/details3_74776.html

**Azərbaycan tərəfindən (Elm və Təhsil Nazirliyi):**

- Aviabilet. Nəzərinizə çatdırırıq ki, aviabilet hər tədris ili üzrə yalnız tədris ilinin əvvəli (gediş) və tədris ilinin sonu (gəliş) olmaqla ildə bir dəfə verilir. Tələbələr digər vaxtlarda (məsələn, qış tətili zamanı) Azərbaycana qayıtmaq istəsələr, bunu şəxsi vəsait hesabına təmin etməlidirlər.

## Müsahibə mərhələsində iştirak üçün əsas meyarlar

Namizədlər yalnız aşağıdakı tələbələrə cavab verdikləri təqdirdə fərdi müsahibə mərhələsində iştirak hüququ əldə edəcəklər:

- Bakalavriatdan sonrakı təhsil səviyyələrinə müraciət edən iddiaçıların ali təhsil haqqında diplom üzrə ixtisası xaricdə oxumaq üçün seçdiyi hər 3 ixtisasa uyğun olması tövsiyə olunur (ixtisasların uyğunluğu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 2009-cu il, 8 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavr pilləsi ixtisaslarının (proqramlarının) siyahısı"na və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 iyun 2011-ci il tarixli, 95 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) təsnifatı"na əsasən müəyyən olunur);
- İddiaçıların seçdiyi hər bir ixtisasın eyni ixtisas istiqaməti üzrə olması tövsiyə olunur;
- Bakalavriat təhsil səviyyəsi üzrə təhsil almaq istəyən şəxslər ölkənin ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə tələbə qəbulu üzrə aparılan test imtahanları çərçivəsində texniki və texnoloji, təbiət, kənd təsərrüfatı, səhiyyə, rifah və xidmət, əsas (baza ali) tibb təhsili və xüsusi təyinatlı ixtisas qrupları üzrə yekun olaraq ən azı 350, digər sahələr üzrə ən azı 450 bal toplamalıdırlar;
- 2023/24-cü tədris ili üzrə ümumtəhsil müəssisələrindən məzun olacaq Dövlət İmtahan Mərkəzi (DİM) imtahanlarında iştirak etməyən iddiaçıların (əvvəlki illərin məzunları da daxil olmaqla) akademik göstəricilərini sübut edən beynəlxalq səviyyədə tanınan imtahan və ya beynəlxalq olimpiada nəticələri (SAT, qızıl/gümüş/bürünc medal sahibi və s.) həmin sahə üzrə mümkün olan ən yüksək göstəricinin 70%-indən (Məsələn SAT üçün min 1100 bal) az olmamalıdır;
- DİM imtahanlarında iştirak etməyən əvvəlki illərin məzunu olan iddiaçıların öncəki bənddə tələb olunan göstərici ilə yanaşı, attestat üzrə cari müvəffəqiyyət dərəcəsinin orta balı 5 ballıq sistem üzrə 4 baldan, 100 ballıq sistem üzrə isə 69 baldan aşağı olmamalıdır. DİM imtahanlarında iştirak etmiş orta ixtisas diplomu olan şəxslərə də bu qayda aid edilir;
- Bakalavriat təhsil səviyyəsinə müraciət edən iddiaçılar Beynəlxalq təhsil proqramları üzrə (IB, A level, AP) təhsil alıblarsa və aşağıda müəyyən olunmuş keçid ballarının minimum və maksimum hədləri aralığında göstəricilərini təsdiq edən arayışın surətini təqdim edə bilirlərsə, bu halda bu namizədlərdən DİM qəbul imtahanın nəticəsi və SAT balı tələb olunmur:
  - *Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme) – 25-35;*
  - *Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education) – C və ya B (müvafiq üç imtahan fənni üzrə);*
  - *Yüksək yerləşdirmə (Advanced Placement) – 3 və ya 4 (müvafiq üç imtahan fənni üzrə).*

- Ölkənin yerli ali təhsil müəssisələrində bakalavriat, magistratura və ya doktorantura səviyyələrində təhsil alan şəxslər təhsillərinin 50%-dən çoxunu tamamlamamış olmalıdır;
- Magistratura və ya doktorantura təhsil səviyyələrinə müraciət edən iddiaçıların əvvəlki təhsil səviyyəsi üzrə ÜOMG 100 ballıq sistem üzrə 71 baldan aşağı olmamalıdır. Hazırda təhsil aldığı eyni səviyyə üzrə müraciət edən iddiaçıların cari ÜOMG də 100 ballıq sistem üzrə 71 baldan aşağı olmamalıdır.
- İngilis dilində tədris olunan proqramlara müraciət edən namizədlərin seçilmiş proqrama uyğun dil biliyi səviyyəsi sertifikatı (IELTS sertifikat balı minimum 6.0 və ya ekvivalent TOEFL sertifikatı).

  **Qeyd:** Namizəd bakalavriat və ya magistratura təhsil səviyyəsində son 3 (üç) il ərzində aldığı kvalifikasiyanın tədris olunduğu dildə təhsil üçün müraciət edərsə, həmin tədris dili (ingilis dili) müvafiq kvalifikasiyanı verən dövlətin rəsmi dövlət dili ilə eynidirsə, bu halda namizəddən dil sertifikatı tələb olunmur və namizəd təqaüd proqramına əvvəlki təhsilinin tam ingilis dilində olması barədə arayışla müraciət edə bilir. Lakin müvafiq arayış yalnız müraciət etdiyi universitet bu sənədi qəbul etdiyi təqdirdə keçərlidir.

- Çin dilində tədris olunan proqramlara müraciət edən namizədlərin seçilmiş proqrama uyğun dil biliyi səviyyəsi sertifikatı HSK (3/4);
- “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” və “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində təhsil almış, lakin Elm və Təhsil Nazirliyi ilə imzaladığı müqaviləyə əsasən, 5 il ərzində ölkədə işləmək öhdəliyini yerinə yetirməmiş məzunların sənədləri qəbul edilməyəcəkdir;

- “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 5.4-cü bəndinə əsasən (*...dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir*), Azərbaycan ali təhsil müəssisələrində yaxud xaricdə dövlət hesabına (“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” və hökumətlərarası müqavilələr yolu ilə) təhsil almış şəxslər eyni təhsil səviyyəsi üzrə yenidən müraciət edə bilməzlər;

  ***Qeyd:*** *Namizədlər, bir akademik ildə ilkin seçimi Elm və Təhsil Nazirliyi tərəfindən aparılan*

*yalnız bir ölkənin təqaüd proqramına müraciət edə bilərlər. Bu qayda yalnız müvafiq təqaüd proqramının müsahibə mərhələsinə buraxılmış şəxslərə şamil edilir*

## Tələb olunan sənədlər

1. Bakalavriat səviyyəsi üçün müraciət edən namizədlər ümumi orta təhsil haqqında (attestat) və ya orta ixtisas təhsili haqqında sənədin (mövcud olmadığı halda təhsil aldığınız məktəb tərəfindən müvafiq sənədlər əvəzinə verilmiş arayış) ingilis dilində notarial qaydada tərcümə və təsdiq edilmiş surəti;

   ***Qeyd:** HTP çərçivəsində ÇXR-də bakalavriat səviyyəsi üzrə təhsil yalnız çin dilindədir. Çin dili tələbini qarşılamayan namizədlər əlavə olaraq bir il Çin dili hazırlıq kursu oxumalıdırlar.*

2. Hazırda təhsil aldığınız təhsil müəssisəsi tərəfindən verilmiş təhsil aldığınıza dair arayış (qəbul olunduğunuz və məzun olacağınız tarix göstərilməklə) və ən son tarixli transkript/fənlər üzrə akademik göstəricilər (ingilis dilində notarial qaydada tərcümə və təsdiq edilmiş surəti);
3. Ali təhsil haqqında sənədin (bakalavriat və magistratura səviyyəsindən məzun olanlar üçün) və diploma əlavənin ingilis dilində (xarici ölkənin diplomu olduğu təqdirdə) notarial qaydada tərcümə və təsdiq edilmiş surəti;

   ***Qeyd**: Namizəd bakalavriat və ya magistratura diplomunu xarici təhsil müəssisəsinin məzunu olaraq almışdırsa, həmin ali təhsil sənədinin Azərbaycan Respublikası ərazisində verilmiş kvalifikasiyaların tanınmasına dair sənədin surəti.*

4. Namizədin seçdiyi universitetlərin ən azı birindən aldığı qəbul məktubu və ya qəbul olma imkanı barədə məktubu (“pre-admission notice, proof of admission from tutor”).

   **Qeyd:** Çin universitetlərindən ön qəbul sənədinin (“pre-admission notice, proof of admission from tutor”) alınmasında yaşanan çətinlikləri nəzərə alaraq, namizədlər ilkin mərhələdə portal.edu.az-da ərizələrini bu sənəd olmadan digər tələb olunan sənədləri müvafiq bölmələr üzrə daxil edərək təqdim edə bilərlər.
   Namizədlərin ön qəbul sənədini elektron ərizəyə daxil etmələri üçün güzəştli müddət **31 yanvar 2024-cü il tarixi, saat 18:00-da bitir.**

   **Diqqətinizə çatdırırıq ki, yekunda müsahibədən uğurla keçən namizədlərdən yalnız ön qəbul sənədini (“pre-admission notice, proof of admission from tutor”) elektron ərizəsinə əlavə etmiş şəxslərin namizədliyi Çin tərəfinə ötürüləcəkdir.**

5. Təhsil alacağınız ixtisasla bağlı məqsəd və gözləntiləriniz barədə qısa xülasə ("Microsoft Word (doc.)" formatında, ingilis dilində). Mövzu seçimi ilə əlaqədar heç bir məhdudiyyət müəyyən olunmamışdır;

   Bakalavriat səviyyəsi üçün - minimum 500 söz,

   Magistratura və doktorantura səviyyələri üçün - minimum 800 söz.
6. Musiqi və incəsənət ixtisası üzrə qəbul olmaq istəyənlərin öz işləri ilə bağlı elektron materiallar, incəsənətlə bağlı müraciət edənlər iki eskiz, iki rəngli şəkil və ya başqa işlərinin əlavə olunduğu elektron materiallar;
7. Fəxri təltiflər, sertifikatlar, diplomlar və digər bu kimi sənədlərin surətləri (mövcud olduğu təqdirdə);
8. IELTS, TOEFL, HSK (mövcud olduğu təqdirdə) sertifikatı;

**Qeyd:** Namizəd bakalavriat və ya magistratura təhsil səviyyəsində son 3 (üç) il ərzində aldığı kvalifikasiyanın tədris olunduğu dildə təhsil üçün müraciət edərsə, həmin tədris dili (ingilis dili) müvafiq kvalifikasiyanı verən dövlətin rəsmi dövlət dili ilə eynidirsə, bu halda namizəddən dil sertifikatı tələb olunmur və namizəd təqaüd proqramına əvvəlki təhsilinin tam ingilis dilində olması barədə arayışla müraciət edə bilir. Lakin müvafiq arayış yalnız müraciət etdiyi universitet bu sənədi qəbul etdiyi təqdirdə keçərlidir.

9. CV və ya tərcümeyi-hal (ingilis dilində);
10. Ümumvətəndaş pasportunun surəti (pasportun bitmə tarixi 1 mart 2025-ci ildən sonra olmalıdır).
11. Tövsiyə məktubları (2 ədəd ingilis dilində, möhürlü, imzalı və yeni tarixli)
12. Sağlamlıq haqqında ərizə formasını **keçiddən** əldə edə bilərsiniz.
13. Məhkumluq haqqında arayış (ingilis dilində notarial qaydada tərcümə təsdiq edilmiş surəti).
14. ***18 yaşı*** tamam olmamış ərizəçilər Çindən qəyyumluq haqqında sənəd və valideynlərinin onların xaricdə təhsil almalarına razılığına dair notarial qaydada ingilis dilinə tərcümə-təsdiq edilmiş müvafiq sənəd təqdim etməlidirlər.

***Qeyd.*** Çin hökumətinin 2024/25-ci tədris ili üçün təqaüd proqramının şərtlərinə əsasən bakalavriat səviyyəsi üzrə müraciət edənlərin yaşı sənəd qəbulu dövründə 25-dən aşağı, magistratura üçün 35-dən aşağı, doktorantura üçün isə 40-dan aşağı olmalıdır.

***Qeyd.*** Eyni təhsil səviyyəsi üzrə ikinci dəfə təhsil almaq istəyən namizədlər hərbi xidmətə çağırışdan möhlət hüququnu təsdiq edən sənəd və ya hərbi biletin notariat qaydada təsdiq olunmuş

surətini təqdim etməlidirlər.

## Elm və Təhsil Nazirliyi ilə əlaqə

Təqaüd proqramı ilə bağlı suallarınızı **htpinfo@edu.gov.az** elektron poçtuna ünvanlaya bilərsiniz.

Tez-tez verilən suallar barədə **keçiddən** tanış olmağınız xahiş olunur.